


# BAYAT

№ 24 (652)







ƏBÜLFƏZ ÜLVİ


## KAŞ GÖRƏ BİLƏYDİM

17 noyabr doğum günüm münasibəti ilə
Budur tamamladım altmış yeddini,
Bu uzun ömürdür,bəli, az deyil.
Onu Rəbb veribdir mükafat kimi,

Hansısa yalançı sehrbaz deyil.
Vallah, omrüm bunu rüşvət almayıb,
Bəlkə xeyri dəyib təməlimin də.
Təbiət gözümə aşiq olmayıb,

Bu işdə rolu var əməlimin də.
Yaşım çoxaldıqca, kəmim yox olub,
Namərd ox çıxmayıb ədəb yayımdan.
Gözüm ac olmayıb, hər vaxt tox olub,

Amma heç doymuram ömür payımdan.
Doğru anketimdir bu ömür mənim,
Onda tərcümeyi-halım yazılıb.
"Dayı"lıq olmayıb bu işdə zəmin,

Əməlim toplayan balım yazılıb.
Tanrım, duam sənə görən yetdimi,
Sayəndə çox getdim həyat dərsinə.
Nə olar bir sabah altmış yeddini,
Kaş görə bilərdim dönüb tərsinə.

## SƏNİNLƏ BİRGƏ DEYİLƏM... BELƏLƏRİ DƏ VAR...

Deyirsən: - ayrılaq anandan, həmən,
Qoy daha yaşasın o, bizdən ayrı.
O dəniz, bir damla zərrəsiyəm mən,
Bir zərrə neyləyər dənizdən ayrı?

Bir an yuxum üçün qanından keçib,,
Mən necə dünyada mənasız qalım.
O, mənim yolumda canından keçib,
Mən ondan ayrılıb, anasız qalım?

Yaman yanaşırsan anaya, yaman,
Bir halda bu ada yaman qatırsan.
Deməli dünyada sən yaşamırsan,
Sadəcə ömründən zaman atırsan.

Götürmür nə ləkə, nə kir böyüklük,
İnsan böyük olmaz dönüklüyülə.
Deyərdim dünyada hər bir böyüklük,
Ölçülür ananın böyüklüyülə.

Ölərəm eyləsəm mən bu günahı,
Bu günah cinayət sayıla bilər.
Suç edib, anamadan ayrılsam, axı,
Anam bu dünyadan ayrıla bilər.

Sənə yalvarmaram amandan ötrü,
Ürəyin deyilmiş sinənə görə.
Səndən vaz keçərəm anamdan ötrü,
Anamdan keçmərəm mən sənə görə.

Dilin necə deyir:-ya anan, ya mən,
Qoy deyim, söz çıxıb artıq yüyəndən.
Onsuz da səninlə birgə deyiləm,
Sən mənə anandan ayrıl deyəndən.

## NƏ FAYDA

*Bir nəfərin dilindən*

Mənimlə oynama nisgil şahmatı,
Məramın çıxıbsa yoxa, nə fayda.
Qoruya bilməsə fiqurlar Şahı,
Həmin fiqurlardan Şaha nə fayda.

Elə sev qarşısın kəsməsin danın,
Çuvalda nə işi vardır cidanın?
Əgər olacaqsa yazıq sevdanın,
Astarı üzündən baha, nə fayda.

Mən peşkəş etmişdim sənə şən qəlbi,
Sən həm məni qırdın, canım, həm qəlbi,
Hayıf sevgi dolu mən verən qəlbi,
Sən təslim elədin oxa, nə fayda.

Tanrıya üz tutdum, çox etdim dua,
Bunu yuxu sanıb, danışdım suya,
Bir yuva qurmuşduq, isti bir yuva,
Sən onu bəxş etdin aha, nə fayda.

Aldanıb, uyursan şeytan sözünə,
Sözümü anmasan düzü - düzünə,
Bir gün deyəcəksən özün-özünə,
Belə yaşamaqdan daha nə fayda.

## ÇƏTİNDİR

*Tale mənə nə verdi ki, nə alsın.*

*ŞAHNAZ ŞAHİN*

Sözsüz istəmirəm qarşına dönüm,
Duyuram, ürəyi qırmaq çətindir,
Onu da bilirəm, başına dönüm,
Talesiz ayaqda durmaq çətindir.

Mərdə şər deyirlər, namərdə mələk,
Bu nədir, qarğadan gizlənir tülək,
Ürək də, ürəklə döyünsün gərək,
Ona da ürəksiz vurmaq, çətindir.

İşə bax çor alır insan "bəli"dən,
Zatsız, zat soruşur, zatı bəllidən,
Qanı bircə anda soran "zəli"dən,
Bir kəlmə söz alıb, sormaq çətindir.

Meydan oxusa da mərd dağa, qaya,
Qırmızı alma da gələcək çaya,
Bir gün tor atacaq zaman dəryaya,
İlanı tutmağa qarmaq çətindir.

Mənim öz ölkəmə çatmaz bir ölkə,
Yad ellər az qalır paxıllıq çəkə,
Bundan da betər söz yazardım, bəlkə,
Sadəcə söz tapıb, qurmaq çətindir.

## SİNƏMDƏN

Allah bir sevdaya düçar olmuşam,
Sevdiyim elə bil ürkür sinəmdən.
Bir çarə söyləyin, naçar olmuşam,
Bu bəla qanımı içir sinəmdən.

Yoxsa tamahının qulu düşbmüş,
Bəlkə hisslərinə dolu düşübmüş,
Sanki yolçu idi, yolu düşübmüş,
Ayrı yol tapmayıb, keçir sinəmdən

Son vaxtlar girirdi çox dondan-dona,
Yeni ev tapıbdır yoxsa şər ona,
Bəlkə, ev görüşü etməkdən yana,
Nankorluq eyləyib, köçür sinəmdən.

Ox çıxdı açdığı o qucaq mənə,
Kül verdi o alov, o ocaq mənə,
Nə qayçı lazımdır, nə bıçaq mənə,
O özü, özünü sökür sinəmdən.

Ahım şikayətə gedibdir göyə,
Belə gedəcəkdi, gəlirdi niyə?
Bəlkə paxırını açaram deyə,
Şələsin götürüb, qaçır sinəmdən?

## ÜRƏYİ

Demə çox ürək var gözə görünmür,
Söz ilə bəzənir, sözün ürəyi.
Eşqi təbiidir, heç nə bürünmür,
Hər zaman düz vurur, düzün ürəyi.

Qəlbi var təbəssüm verən üzün də,
Şər yoxdur könülün, könül izində,
Sanma ürəyi yox adi dizin də,
Taqətdir, dözümdür dizin ürəyi.

Arzusu, amalı lilli deyildir,
Danışan dili var, dilli deyildir,
Bəlkə də çoxuna bəlli deyildir,
Ürəyin gözü var, gözün ürəyi.

Adi əməl deyil, ondakı əməl,
Ürək çox məsəli həll eyləyir, həll,
Əli yandırmazdı olsaydı, əgər,
Alovun ürəyi, közün ürəyi.

Ondan ala bilmir mehrini fələk,
O qədər zərifdən, zərivdir ürək,
Sevgidən qoşunu olsa da, gərək,
Özün qoruyasan, özün ürəyi.

## HƏSRƏTİ

Yapışır qəlblərə qorxunc xal kimi,
Axı kim araya atıb, həsrəti?
Sanki tərifləyib nadir mal kini,
Şeytan insanlara satıb, həsrəti.

Çox da alınıbdır, çox oyun onda,
Özünə olubdur ox, oyun onda,
Vüsalla həsrətin son oyununda,
Vüsal uduzmayıb, udub həsrəti.

Hər zaman qəm vermək olub niyyəti,
Yaxşı əməllərə qol qoymaz qəti,
Təbrikə qalxaram bəşəriyyəti,
Bilsəm qara torpaq örtüb, həsrəti.

O qədər veribdir qəlbimə təlaş,
Qızıldan don geyə qurmaram təmas,
Əlimi uzadıb etmərəm xilas,
Görsəm bataqlıqda batıb, həsrəti.

Son vaxtlar görünmür, xoşbəxtdir halım,
Onsuz da bu idi mənim amalım,
Polisdə iş tapıb, sanki vüsalım,
Cinayət üstündə tutub, həsrəti.

## DÜNYADAN

Yazanlar çox yazıb, zənn etdim küsər,
Yazmasam bir cümlə, sətir dünyadan.
Qoy deyim sözümü, düz söz dərd kəsər,
Hərəyə bir bucaq yetir dünyadan.

İnciyir, lağ edir ac da, doyan da,
Onu duymayanda, onu duyan da,
Dağına, daşına xətir qoyan da,
Saxlamır bir zərrə xətir dünyadan.

Bilmirəm qucağı yaşama darmı?
Düzünü söyləmək günahmı, armı?
Heç kəs nə verdiyin fərqinə varmır,
Hamı şikayətin edir dünyadan.

Nadanlar paklığa mane olurlar,
Dünyagir olanlar, cani olurlar,
Məzlumlar nə alsa qane olurlar,
Zalımlar nəyi var, didir dünyadan.

Yamanlar anlamır söz boyasını,
Hər kəs bir cür yozur, öz röyasını,
Yaxşılar ölmür ki, haqq dünyasını,
Görmək istəyindən gedir dünyadan.

## BURDA NƏ VARDIR Kİ...

Deyirsən - yuxuda görmüşəm, canım,
Məcnun səni varis etmək istəyir.
Özün yoz yuxunu, mən necə sanım,
Məcnun məcnunluqdan getmək istəyir?

Gözüm qan ağlayır, axı solaram,
Yuxunu görəndən qəlbim alışır.
Bəs sən Məcnun olsan, mən nə olaram,
O, bizim işlərə niyə qarışır?

Niyə köz ələyir bizim çəmənə?
İnsan ev yandırmaz, gərək söndürə.
Bir məktub yazmışam Leyli nənəmə,
Bəlkə fikirindən onu döndərə.

Deyirəm: - qulaq as, tez qəmə düşmə,
İzin ver yuxunu mən özüm yozum.
Nədən küsürsən küs, taledən küsmə,
Bunun nəyi pisdir, ay "ədabazım".

Heç də qəm eyləmə, əgər beləsə,
Burda nə vardır ki, yolu azacaq.
Yəqin Məcnun məni varis eyləsə,
Səni də bəxt mənə Leyli yazacaq.

## BELƏ YAZARLAR

Şeir həsr etmisən dedin, mənə sən,
Gül şeir yazmaz ki, gülə yazarlar.
Utancaq zamanı üzünə düşən,
Qırmızı bəzənmiş tülə yazarlar.

Yuxum ərşə qaçıb görəndən səni,
Barı qov sevdanı bürüyən çəni,
Bu qədər yuxusuz qoyarsan məni,
Yatmaram, adıma lələ yazarlar.

Olmaq istərsənsə şeirə sakin,
Söylə, mən də sənə söz qoşum, lakin,
Nə olar telinə qoy tumar çəkim,
Şeiri tumarlı telə yazarlar.

Elə yaz, dil tapsın hərflərlə, səslər,
Oxusun, məst olsun, şeirə məstlər,
Əgər irad tapsa tənqidçi kəslər,
Desən tənqid yazma, ölə, yazarlar.

Səni də Rəbb yazıb mənə şeir tək,
Yazıb həm ruh verib, həm can, həm ürək,
Canım, yaradanı necə sevməyək?
Bax şeir yazanda, belə yazarlar.

*P.S. 17 noyabr şairin doğum günüdür. Onu ürəkdən təbrik edir, can sağlığı və yaradıcılıq uğurları arzulayırıq.*